

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 134 (23.776)

28 iyul 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Türkiyə Böyük Millət Məclisi sədrinin ölkəmizə səfərinin Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edilib. Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərin önəminə toxunularaq bildirilib ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi əlaqələrimizin daha yüksək səviyyəyə qalxmasına xidmət edir. Görüşdə Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurlu işbirliyinin olduğu vurğulanıb. Söhbət zamanı Bakıda keçiriləcək Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün əhəmiyyətindən, Azərbaycan və Türkiyə parlamentlərarası əməkdaşlığın da uğurla inkişaf etməsindən bəhs olunub.

* * *

Prezident İlham Əliyev həmin gün Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

*İnformasiya texnologiyalarının inkişafı sahəsində müəyyənləşdirilən dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir, informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. İnformasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron poçt-maliyyə xidmətlərinin, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir.*

## Muxtar respublikada informasiya texnologiyalarının tətbiqi və əhatə dairəsi genişləndirilir





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən bir sıra qurumlara elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə yaradılmış "Elektron hökumət" portalına müvafiq qurumların xidmətləri portala inteqrasiya edilmişdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında vətəndaşların müraciətləri üzrə elektron qeydiyyat və idarələrarası elektron sənəd dövriyyəsi sistemlərinin fəaliyyəti davam etdirilmiş, bir sıra qurumların sistemə qoşulması təmin olunmuşdur.

Nazirlik aparatının məsul şəxslərinin iştirakı ilə rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində monitorinqlər aparılmış, istismar müddəti ərzində rabitə və abunə qurğularında yaranmış nasazlıqların aradan qaldırılması üçün operativ və zəruri tədbirlər həyata keçirilmiş, istismar zamanı sıradan çıxmış rabitə dirəklərinin, rabitə xətt və abunə qurğularının bərpası istiqamətində müvafiq işlər görülmüşdür.

Yeni optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsində vacib amillərdəndir. Bu gün muxtar respublikada fiber-optik telekommunikasiya xətlərinin çəkilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində həyata keçirilən "Evədək optika" layihəsi uğurla davam etdirilmişdir. Optik şəbəkənin genişlənməsi əhalinin internetdən istifadə imkanlarını da xeyli artırmışdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, muxtar respublikaya daxil olan internetin sürəti artırılmış, ümumtəhsil məktəblərində quraşdırılan kompüterlər internetə qoşulmuşdur. Hazırda muxtar respublikanın bütün yaşayış məntəqələrində genişzolaqlı və simsiz internet xidmətləri göstərilir. "Naxtel" mobil operatorunun fəaliyyətə başlaması isə Naxçıvanda 4G internetdən istifadə olunması informasiya-məlumatlandırma işinin səmərəliliyini xeyli artırmaqla "Naxtel" mobil operatorunun yeni inzibati binada fəaliyyət göstərməsi bu sahəyə yeni stimul vermişdir. Bütün bunlar informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin uğurlu nəticələridir. Həmçinin 2021-ci ilin mart və aprel ayları ərzində telekommunikasiya şəbəkəsinin inkişafına dair layihələr icra olunmuş, şəhər, rayon mərkəzlərində və kəndlərdə fəaliyyət göstərən avtomat telefon stansiyalarına internet plataları əlavə edilmişdir ki, nəticə etibarilə, muxtar respublika üzrə 6000-ə yaxın internet istifadəçisinin tələbatının ödənilməsinə imkan yaranıb. Gündəlik daxil olan müraciətlərə əsasən abonentlər yüksəksürətli ADSL (Asimmetrik rəqəmsal abunəçi xətti) internetlə təmin olunurlar.

Bunlarla yanaşı, 2020-ci il və 2021-ci ilin müvafiq dövründə Culfa rayon ərazisində, Ordubad rayonunun Vənənd, Nüsnüs və Yuxarı Əndəmic kəndlərində, Şərur rayonunun Muğancıq-Mehrab, Şəhriyar və Məmmədsabir kənd mərkəzlərində, Babək rayonunun Nəcəfalidizə, Culfa rayonunun Camaldın kəndlərində və Kəngərli rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə evləri, Dəstə Radio-Televiziya Verici Stansiyasının və Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binaları istifadəyə verilmişdir.

Nazirlik tərəfindən qeyd olunan dövrdə kadr hazırlığı da diqqət mərkəzində saxlanılmış, nazirlik aparatının, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin və rayon (şəhər) idarələrinin işçilərinin aidiyyəti sahələr üzrə müasir standartlara cavab verən yeni nəsil telekommunikasiya sistemləri və xüsusiyyətləri, avtomat telefon stansiyaları və onların iş prinsipləri, rəqəmli televiziya və peyk yayımı, tezlik diapazonları və zolaqları, şəbəkə inzibatçılığı, proqramlaşdırma dilləri, informasiya təhlükəsizliyi, serverlər, məlumat bazaları, məftilli və fiber-optik xətt sahəsində zəruri biliklərə yiyələnmələri, eləcə də bilik və bacarıqlarının artırılması məqsədilə həyata keçirilən tədbirlər davam etdirilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kurslarda iştirak edən dinləyicilərə kompüterin daxili və xarici qurğuları, onların iş prinsipləri, kompüterin proqram təminatı, əməliyyat sistemləri, antivirus proqramları barədə hazırlanmış slaydlar vasitəsilə ətraflı məlumatlar verilməklə "Microsoft Windows" əməliyyat sistemi, "Microsoft Office", internet və qrafik dizayn proqramları, eləcə də ingilis dili kursları üzrə dərslərin tədrisi davam etdirilmişdir.

Muxtar respublikada informasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər poçt sistemini də əhatə etmişdir. Müasir informasiya texnologiyalarının tətbiqi, poçt sisteminin yenidən qurulması, yenitipli elektron xidmətlərin göstərilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır. Keyfiyyətli televiziya yayımı, elektron medianın inkişafı informasiya cəmiyyətinin qarşıya qoyduğu əsas tələblərdəndir. Muxtar respublikada 2012-ci ilin mart ayından etibarən rəqəmsal yayıma başlanılmışdır. Hazırda muxtar respublikanın bütün yaşayış məntəqələrində televiziya kanallarının və radiodalğaların rəqəmsal formatda yayımı təmin edilmişdir. Muxtar respublika ərazisində IP televiziyanın yayımı təşkil edilərək sakinlərə yeni nəsil telekommunikasiya sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaradılmışdır.

Muxtar respublikada informasiya texnologiyalarının ayrı-ayrı sahələrdə də tətbiqinə diqqət yetirilir. Belə ki, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının, Naxçıvan Dövlət Universiteti kitabxanasının bazalarında elektron kitabxanalar yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi və AMEA Naxçıvan Bölməsi üçün isə elektron kitabxana və elektron arxiv sistemi istifadəyə verilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə qabiliyyəti məhdud olanlar üçün audiokitabxana, eşitmə məhdudiyyəti olanlar üçün elektron kitabxanalar, habelə 150 şagird yerlik Distant Təhsil Mərkəzi fəaliyyətini uğurla davam etdirmiş, muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün zəruri tədbirlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı barədə demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. Muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

İnformasiya cəmiyyətinin formalaşması prosesi mürəkkəb və çoxşaxəlidir. Belə ki, muxtar respublikada bundan sonra da informasiya texnologiyalarının inkişafı daim diqqət mərkəzində saxlanılacaq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Yarım ilin yekunları müzakirə olunub

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində cari ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasını xidmətin rəisi Namiq Paşayev açaraq bildirib ki, 2021-ci ilin yanvar-iyun aylarında muxtar respublikanın elektrik şəbəkələrinə 225 134 279 kilovat-saat elektrik enerjisi daxil olub, bunun 16 897 000 kilovat-saatı İran İslam Respublikasından alınıb, 30 117 501 kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 32 048 000 kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 19 326 200 kilovat-saatı "Arpaçay-1" Su Elektrik Stansiyasında, 506 000 kilovat-saatı "Arpaçay-2" Su Elektrik Stansiyasında, 4 738 500 kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında, 96 856 000 kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 23 866 718 kilovat-saatı Naxçıvan Günəş Elektrik Stansiyasında, 778 360 kilovat-saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında istehsal edilib, elektrik şəbəkələrinə ötürülüb. Bu dövrdə İran İslam Respublikasına 16 845 000 kilovat-saat elektrik enerjisi verilib. 2021-ci ilin yanvar-iyun aylarında elektrik stansiyalarında 208 237 279 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu enerjinin 86 736 201 kilovat-saatı və ya 41,7 faizi su elektrik stansiyalarında, 97 634 360 kilovat-saatı və ya 46,8 faizi istilik elektrik stansiyalarında, 23866718 kilovat-saatı və ya 11,5 faizi Günəş elektrik stansiyalarında istehsal edilib. Alternativ və bərpa olunan enerji mənbələrində 110 602 919 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu, stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 53,2 faizini təşkil edir. Bununla yanaşı, muxtar respublikada elektrik sayğaclarının quraşdırılması işləri də davam etdirilir, 1 iyul 2021-ci il tarixə quraşdırılan bütün növ elektrik sayğaclarının sayı 95 963 ədəd olub.

Qeyd olunub ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Elektroenergetika mühəndisliyi, Naxçıvan Dövlət Texniki Kollecinin Elektrik təchizatı ixtisaslarının, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində, həmçinin Təhsil Nazirliyinin nəzdində Naxçıvan Şəhər Tədris Peşə Liseyində elektrik mütəxəssisi kurslarının tədris sahəsində təhsil alan tələbələrin Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin müvafiq struktur bölmələrinin istismar sahəsinə daxil olan elektrik stansiyaları və elektrik şəbəkələrində istehsalat təcrübəsi keçmələrinə lazımi şərait yaradılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

***Xəbərlər şöbəsi***

*Naxçıvan Muxtar Respublikasında dayanıqlı sosial-iqtisadi inkişaf tempinin qorunub saxlanılmasında icrası uğurla həyata keçirilən Dövlət proqramlarının mühüm əhəmiyyəti vardır. Bu proqramlar çərçivəsində böyük inamla reallaşdırılan kompleks tədbirlər Naxçıvanda sosial-iqtisadi inkişafın davamlılığının möhkəmlənməsini təmin edir. İcrası davam edən proqramlar içərisində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın xüsusi yeri vardır. Proqramın icrası ilə bağlı ötən müddətdə görülən işlər muxtar respublikanın hərtərəfli inkişafını təmin etmiş, əhalinin sosial rifahının daha da yüksəlməsinə səbəb olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***



# Dövlət proqramının icrası yeni perspektivlərə yol açır

Həyata keçirilən tədbirlərin ikinci rübdə də uğurla davam etdirilməsi Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm təməllər üzərində dayandığını bir daha sübuta yetirmişdir.

Sənaye və kənd təsərrüfatı sahəsinin inkişafı tədbirləri çərçivəsində mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Süni Mayalanma Mərkəzi istifadəyə verilmişdir. Həmçinin Ali Məclisin Sədri iyunun 9-da Duzdağda yeni şaxtanın istifadəyə verilməsi ilə bağlı tədbirdə iştirak etmişdir. İkinci rübdə proqramın icrasına uyğun olaraq Kəngərli Rayon Baytarlıq İdarəsi üçün yeni inzibati binanın və Şərur Sənaye Məhəlləsində 3 korpusun tikintisi davam etdirilmişdir. Dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 2 soyuducu anbarın, 1 tikiş, 1 mebel istehsalı sahəsinin, 3 istixana, 4 arıçılıq, 1 tingçilik, 1 bağçılıq, 13 heyvandarlıq, 1 quşçuluq təsərrüfatının yaradılması, 1 mebel istehsalı sahəsinin, 1 istixana, 1 arıçılıq, 1 bağçılıq və 4 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Bu dövrdə aqrar sahə üzrə 805 sığorta müqaviləsi bağlanmışdır. Ümumilikdə, 8 ailə təsərrüfatına və 10 istehsal müəssisəsinə istehsal etdiyi məhsulların etiketlərində məlumatların orfoqrafik qaydalara, saxlama şəraiti və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsi məqsədilə metodik köməklik göstərilmiş, ailə təsərrüfatları 27 adda 956 tara ilə təmin olunmuşdur. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində 574 min 800 manat dəyərində 54 texnika və texnoloji avadanlıq alınaraq ehtiyat yaradılmış, 1 milyon 217 min 490 manat dəyərində 118 texnika və texnoloji avadanlığın güzəştli şərtlərlə satışı təşkil edilmişdir. "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Naxçıvan filialında 52 fiziki və hüquqi şəxslə ümumi dəyəri 740 min 634 manat olan 67 kənd təsərrüfatı avadanlığının icarəyə verilməsi ilə bağlı lizinq müqavilələri bağlanmışdır.

Muxtar respublikada sosial-iqtisadi həyatın əsas sütunlarından birini nəqliyyat sektoru təşkil edir. Bu sahənin inkişafı əhalinin rahatlığının təmin edilməsi ilə yanaşı, daxili və xarici iqtisadi əlaqələrin genişlənməsinin də başlıca şərtlərindəndir. Proqramda nəzərdə tutulan yol təsərrüfatı və nəqliyyatın inkişafı tədbirləri ikinci rübdə də davam etdirilmişdir. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatı, Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri ilə tanışlıq və Culfa-Ordubad magistral avtomobil yolunun açılışı ilə bağlı keçirilən tədbirlərdə iştirak etmişlər. İyunun 3-də Ali Məclis Sədrinin iştirakı ilə Şərur şəhərində avtomobil yolları yenidənqurmadan sonra istifadəyə verilmişdir. İkinci rübdə Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kəndləri üzrə avtomobil yolunun tikintisi davam etdirilmişdir. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Culfa Lokomotiv Deposunda lokomotivlər 11 dəfə texniki baxışdan keçirilmiş, 7 dəfə cari təmir işləri aparılmışdır. Culfa İstismar Vaqon Deposunda 57 vaqon təmir edilmişdir. Yararsız vəziyyətdə olan 2 min 381 ağac şpal yeni və yarımyararlı şpallarla əvəz olunmuş, rels dövrələrində yarana biləcək nasazlıqların vaxtında qarşısının alınması məqsədilə 192 dəmir altlıq dəyişdirilmişdir. Həmçinin Naxçıvan Rabitə Qovşağının anbar binasında təmir işləri başa çatdırılmış, Naxçıvan stansiyasında polis şöbəsi üçün inzibati binanın tikintisi, nəzarət-ölçü cihazları sexi, Culfa İstismar Vaqon Deposu, Dərəşam-Nehrəm mənzilinin 433-cü kilometrindəki Təhlükəsizlik Komandası, Şərur Dövriyyə Deposu və Şərur Elektrik Təmas Şəbəkəsinin



yerləşdiyi binalarda təmir və yenidənqurma işləri davam etdirilmişdir. Həyata keçirilən tədbirlər nəqliyyat sektorunda irimiqyaslı layihələrin icrasının yüksək peşəkarlıqla təmin edildiyini, eləcə də mövcud infrastrukturun qorunmasının diqqət mərkəzində olduğunu deməyə əsas verir.

Naxçıvanda həyata keçirilən abadlıq-quruculuq tədbirlərinin mərkəzində insan amili dayanır. Görülən işlər bir tərəfdən yeni iş yerlərinin açılması ilə əhalinin maddi rifahının daha da yaxşılaşmasına, digər tərəfdən sosial qayğıya ehtiyacı olanların və şəhid ailələrinin yeni mənzillərlə təmin edilməsinə şərait yaradır. İkinci rübdə də mənzil təsərrüfatı və abadlıq-quruculuq tədbirləri həyata keçirilmiş, mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan şəhərində "ASAN xidmət" mərkəzinin binasının tikintisi ilə tanışlıq üçün keçirilən tədbirdə iştirak etmişlər. Ali Məclisin Sədri iyunun 3-də Şərur rayonunda Bayraq Meydanının, Şərur şəhərində yeraltı piyada keçidinin və yeni yaşayış binasının istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmiş, Avtovağzal binasının tikintisi üçün görülən işlərlə maraqlanmışdır. İkinci rübdə Naxçıvan şəhəri və Babək rayonlarında yerləşən şəhidlər xiyabanları, eləcə də Naxçıvan şəhərindəki Bayraq Meydanı, Nikah Evi, Dövlət İmtahan Mərkəzi və Statistika Komitəsinin inzibati binalarında təmir işləri başa çatdırılmışdır. Dövlət proqramında sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə mənzillərin tikintisinin davam etdirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Ali Məclis Sədrinin iştirakı ilə iyunun 26-da 13 İkinci Qarabağ müharibəsi şəhidinin ailəsinə mənzillərin təqdim olunması onların sosial təminatının xüsusi diqqətdə saxlanılmasının daha bir ifadəsidir.

Sosial infrastrukturun səmərəli fəaliyyətinin təşkili muxtar respublikada həyata keçirilən dövlət siyasətinin tərkib hissələrindəndir. Çünki inkişaf etmiş səhiyyə və təhsil mühitinin mövcudluğu cəmiyyətdə baş verən bütün proseslərə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Müasir dövrün prinsiplərinə uyğun infrastruktur layihələrinin reallaşdırılması əhalinin sağlamlığının qorunmasında və gənc nəslin intellektual inkişafının təmin edilməsində müstəsna rol oynayır. Dövlət proqramında nəzərdə tutulan sosial infrastrukturun yaxşılaşdırılması tədbirləri ikinci rübdə uğurla davam etdirilmiş, mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı istifadəyə verilmişdir. Ali Məclisin Sədri aprelin 9-da Ordubad Rayon Uşaq Xəstəxanası və Ordubad şəhər 1 nömrəli tam orta məktəbin istifadəyə verilməsi, innovativ dərnəklərin təqdimatı, iyunun 3-də Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün yaradılan yeni iş şəraiti ilə tanışlıq, həmin ayın 16-da Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının təməlinin atılması, ayın 24-də Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binasının açılışı ilə bağlı tədbirlərdə iştirak etmişdir. İkinci rübdə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin, Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin yerləşdiyi binaların, Naxçıvan Müəllimlər İnstitutunun binasında fasad işıqlarının təmiri başa çatdırılmışdır.

Muxtar respublikada istifadəyə verilən yeni elektrik stansiyalarının sayı ildən-ilə artmaqda davam edir. Bu sahəyə çoxşaxəli yanaşma, yeni enerji mənbələrinin yaradılması işinin intensiv xarakter alması Naxçıvanın elektrik enerjisini idxal edən diyardan onu ixrac edən regiona çevrilməsinə səbəb olmuşdur. Yeni layihələrin icrası zamanı alternativ və bərpa olunan enerji mənbələrinə üstünlük verilməsi muxtar respublikanın bu sahədə nümunəvi rola malik olmasına gətirib çıxarmışdır. Proqramda müəyyənləşdirilən enerji təchizatının yaxşılaşdırılması tədbirləri çərçivəsində mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə tanışlıq üçün keçirilən tədbirdə iştirak etmişlər. Ali Məclisin Sədri aprelin 22-də Şahbuzkənd, Külüs və Keçili kəndlərinin elektrik sistemlərində görülən işlərlə maraqlanmış, mayın 26-da Şərur rayonunun Zeyvə kəndində Günəş, iyunun 18-də Culfa rayonunda külək-günəş hibrid elektrik stansiyalarının istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmişdir. İkinci rübdə Tivi Su Elektrik Stansiyasının tikintisi davam etdirilmiş, muxtar respublikanın şəhər və rayonlarında 19,9 kilometr uzunluğunda yeni elektrik verilişi xətləri çəkilmiş, 62,1 kilometr uzunluğunda elektrik xətləri təmir edilmiş, 1 yeni transformator yarımstansiyası quraşdırılmış, 2,7 kilometr uzunluğunda hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz olunmuşdur. Eyni zamanda aprel-iyun aylarında muxtar respublikada 214 smartkarttipli qaz sayğacının quraşdırılması və Qaz İstismar Xidmətinə minik avtomobilinin alınması bu sahədə də işlərin uğurla davam etdirilməsinin bariz nümunəsidir.

İnsanın təməl ehtiyaclarından olan sudan səmərəli istifadə müasir dövrün ən aktual məsələlərindən hesab olunur. Əhalinin içməli su tələbatının ödənilməsi qədər, torpaqların su təminatının yaxşılaşdırılması da həyati əhəmiyyət kəsb edir. Dövlət proqramında da su təchizatının, kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, eləcə də meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin açılışı ilə bağlı keçirilən tədbirdə iştirak etmişlər. Həmçinin Ali Məclisin Sədri aprelin 22-də Şahbuz rayonunun Külüs kəndində yeni nasos stansiyasının istifadəyə verilməsi ilə bağlı tədbirdə iştirak etmiş, rayonda əkin dövriyyəsinə qatılan 340 hektar torpaq sahəsinə baxmışdır. İkinci rübdə 13,95 kilometr içməli su xətlərində, 1,3 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmış, 3 subartezian quyusu istifadəyə verilmişdir. "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində muxtar respublikanın rayonlarında 51,27 kilometr içməli su, 0,1 kilometr kanalizasiya xətti çəkilmiş, 2 min 268 evin su, 1240 evin kanalizasiya xəttinə birləşməsi aparılmışdır. Bu dövrdə torpaqların su təminatını yaxşılaşdırmaq üçün 12,09 kilometr suvarma boru xətlərində təmir işləri aparılmış, 35,53 kilometr yeni suvarma boru xətləri çəkilmişdir. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Şərur, Babək və Kəngərli rayonlarında, ümumilikdə, 2,35 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmişdir. Muxtar respublikada 36,9 kilometr kanal, 71,24 kilometr ara arx və 18,8 kilometr kollektor lildən təmizlənmişdir. Ümumilikdə, 308,9 hektar ərazidə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır ki, bu da kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdıran mühüm amillərdən biridir.

Proqramda nəzərdə tutulan və mütərəqqi əhəmiyyət kəsb edən tədbirlərdən biri də rabitə xidmətlərinin yaxşılaşdırılmasıdır. Əhalinin informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanlarının artırılması yüksək intellektə malik



cəmiyyətin formalaşmasının əsas şərtlərindəndir. İnsanların informasiya tələbatının ödənilməsi üçün müasir şəraitin yaradılması mühüm sosial-iqtisadi proseslərdən hesab olunur. İkinci rübdə proqramın icrası məqsədilə 946 metr, o cümlədən "Evədək optika" layihəsi çərçivəsində 11 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmişdir. Bu dövrdə 1920 abonent internetlə təmin olunmuş, 591 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilmişdir. Kadr hazırlığının təşkili də diqqətdə saxlanılmış, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kurslara 133 qrup üzrə 301 dinləyici cəlb olunmuşdur.

Muxtar respublikada məşğulluğun artırılması və istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi istiqamətində görülən işlər sosial-iqtisadi inkişafın təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə sahibkarlığa göstərilən dövlət dəstəyi özəl sektorun inkişafı üçün yeni imkanlar yaradır. Həmin imkanlardan səmərəli istifadə yeni istehsal sahələrinin yaradılmasına və iş yerlərinin açılmasına səbəb olur. Belə ki, ikinci rübdə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən kiçik və orta sahibkarlara 424 min 750 manat həcmində kreditlər verilmiş, dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 37 istehsal sahəsinin yaradılması başa çatdırılmış, bu sahələrdə 249 iş yeri açılmışdır. Yerli məhsulların ixracının stimullaşdırılması istiqamətində işlər davam etdirilmiş, 3-ü onlayn qaydada keçirilən 8 beynəlxalq tədbirdə 17 sahibkarlıq subyektinin 29 nümayəndəsinin iştirakı təmin olunmuşdur. "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən filtrli siqaret, meyvə araqları, tütün, peçenye, mebel, travertin, mineral su və vafli məhsullarının 7 xarici ölkəyə və Bakı şəhərinə ixracı məqsədilə 40 mənşə sertifikatı verilmişdir.

İkinci rübdə dövlət əmlakının özəlləşdirilməsindən 148 min 895,24 manat vəsait daxil olmuş, torpaq və qeyri-yaşayış sahələri üzrə bağlanmış icarə müqavilələrindən 78 min 430 manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Bu dövrdə 579 ünvan lövhəsi və 2 min 491 giriş nömrə nişanının sənaye üsulu ilə hazırlanması üçün sifariş verilmişdir.

*Dövlət proqramında nəzərdə tutulan tədbirlərin bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi qazanılan nailiyyətlərin artması üçün yeni imkanlar yaradacaqdır.*

**"Şərq qapısı"**

## Zəfər Düşərgəsi gənclərimiz arasında sarsılmaz qardaşlığı daha da möhkəmləndirəcək

*Xəbər verdiyimiz kimi, iyulun 26-da Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı, ümumilikdə, 200-dən çox gəncin iştirakı ilə muxtar respublikamızda "Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi"nə start verilib. İkinci gün qonaqlar əvvəlcə Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar, burada onlara müalicə mərkəzi ilə bağlı ətraflı məlumat verilib. Daha sonra "Duzdağ" hoteldə Düşərgə iştirakçılarının İkinci Qarabağ müharibəsinin qaziləri ilə görüşü keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, 44 günlük Vətən müharibəsində şücaət göstərmiş qazilərimizlə görüşümüzün məqsədi gənclərimizə örnək olan qəhrəman müharibə iştirakçılarımızın timsalında gəncliyə əsl vətənpərvərlik ideologiyasını aşılamaqdır. Bilirik ki, II Qarabağ müharibəsində xalqımız Ali Baş Komandanın ətrafında birləşərək birlik, bərabərlik, bir sözlə, əsl vətəndaşlıq nümayiş etdirdi. Rəşadətli ordumuzun gücü, qüdrəti, qorxmazlığı ilə əzəli-əbədi torpaqlarımız olan Dağlıq Qarabağ Azərbaycana



qovuşdu. Vətən müharibəsinin ən çətin, məşəqqətli günlərində yanımızda olan qardaş Türkiyə Respublikasının daim səsimizə səs verməsi tarixi birlik və bərabərliyin sübutudur.

Gənclər Fondunun Könüllüsü, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər ixtisasının tələbəsi Rəhim Novruzov qeyd edib ki, Türkiyə və Azərbaycan Respublikası prezidentlərinin tarixi Şuşa səfərindən və Şuşa Bəyannaməsi kimi əhəmiyyətli bir sənədin imzalanmasından sonra Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmləndirilməsi və ölkə gəncləri arasında sıx əməkdaşlığın yaranması məqsədilə təşkil olunmuş belə tədbirlər hər bir gənc üçün qürurvericidir. Biz həm də ona görə sevinirik ki, bu tədbirdə qalib xalq kimi iştirak edirik. Şanlı ordumuzun və Ali Baş Komandanımızın erməni işğalçıları üzərində qazandığı böyük qələbə çoxəsrlik tariximizin səhifələrinə yazılmış əsl qəhrəmanlıq dastanıdır.

Vətən müharibəsi qazisi, Şuşanın, "Xocavəndin azad olunması uğrunda" və "İgidliyə görə" medalları ilə təltif olunan mayor Təbriz Zeynalov qazilər adından çıxış edərək bildirib ki, dövlətimiz 44 günlük müharibədə Azərbaycan xalqının, onun liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbir göstərən xalqımız, nəhayət, qələbəyə çatdı. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfədir ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır. Bu bizim üçün böyük qürur və sevincdir. Azərbaycan Ordusunun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi, ilk növbədə, Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan cənab İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Bir şeyi də diqqətə çatdıraq ki, müharibənin ən şiddətli anlarında belə, qardaş Türkiyə Respublikası bizdən maddi və mənəvi dəstəyini heç zaman əsirgəmədi. Bu tarixin bütün dövrlərində belə olub və olacaq. İnanırıq ki, bu dostluq və qardaşlıq olduğu müddətcə biz heç vaxt məğlub dövlət olmayacağıq.

Sonra iştirakçıları maraqlandıran suallar Vətən müharibəsi iştirakçıları tərəfindən cavablandırılıb.

Zəfər düşərgəsinin təşkilatçı rəhbərləri və iştirakçıları "Şərq qapısı" qəzetinə müsahibələrində tədbirin önəmindən, birgə əməkdaşlığın gələcək perspektivlərindən geniş söhbət açıblar.

*Fərid Cəfərov – Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru:* – "Azərbaycan-Türkiyə gənclərinin Zəfər



Düşərgəsi" adından da məlum olduğu kimi, ötən il ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun qazandığı şanlı Qələbəyə həsr edilib. Düşərgənin təşkilinin əsas məqsədi bu zəfərin, eyni zamanda da ölkələrimizin ortaq tarixinin, mədəniyyətinin hər iki qardaş ölkənin gəncləri arasında geniş şəkildə təbliğ olunmasıdır. Tədbir üçün Naxçıvanın məkan seçilməsinin xüsusi əhəmiyyəti isə buranın həm Azərbaycanla Türkiyəni yaxınlaşdıran bir diyar olması, eləcə də Türk dünyasında əhəmiyyətli mövqeyə malik olması ilə bağlıdır. Düşərgə çərçivəsində hər iki ölkənin gəncləri muxtar respublikanın tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri ilə yaxından tanış olacaqlar.

Bildiyimiz kimi, 2021-ci il ölkə Prezidentinin müvafiq Sərəncamı ilə "Nizami Gəncəvi ili" elan olunub, Türkiyədə isə bu il "Yunus Əmrə ili" kimi qeyd edilir. Bu baxımdan gənclər həm də Türk dünyasının iki böyük klassikinin yaradıcılığı ilə yaxından tanış olacaq, eyni zamanda müxtəlif tədbirlər vasitəsilə bu dəyərli irsin təbliği həyata keçiriləcək. Qeyd edim ki, düşərgənin gələcəkdə daha geniş miqyasda keçirilməsi nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Türkiyə Gənclik Vəqfi ilə müzakirələrdə gələcəkdə Naxçıvanda Türk dünyası gənclərinin forumunun keçirilməsini də qarşıya məqsəd qoymuşuq.

Onu da bildirim ki, istənilən beynəlxalq tədbirlər qarşılıqlı prinsip əsasında keçirilir. Yəqin ki, növbəti ildə Türkiyədə də analoji tədbir reallaşdırılacaq. Ümumiyyətlə, Azərbaycan Respublikası Gənclər Fondu və Türkiyə Gənclik Vəqfi iki ilə yaxındır ki, sıx əməkdaşlıq edir, bu əməkdaşlıq çərçivəsində hər iki ölkədə bir sıra tədbirlər, layihələr həyata keçirilib. Həmin tədbirlərin keçirilməsində məqsəd Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq işində gənclərin iştirakını təmin etməkdir. Məhz 44 günlük Vətən müharibəsi dövründə Türkiyə Gənclik Vəqfi böyük bir nümayəndə heyəti ilə Azərbaycana səfər etdi, bu addım, xüsusilə ermənilərin təcavüzünə məruz qalmış Tərtər, Bərdə və Gəncədəki mülki vətəndaşların vəziyyətinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı. Gələcəkdə ikitərəfli əməkdaşlığımızda qarşıya qoyduğumuz məq-



sədlər naminə gənclərin maarifləndirilməsi, ortaq mədəniyyətimizin təbliğ olunması, eyni zamanda iki ölkənin haqq səsinin dünyaya çatdırılması üçün daha da səylə çalışacağıq.

Deyim ki, Azərbaycan Respublikasının Gənclər Fondu son 3 illik fəaliyyətində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birgə bir sıra layihələrə imza atıb. Bunların sırasında 2018-ci ildə "Gənclik Naxçıvanda" düşərgəsini də xüsusi qeyd etməliyəm. O zaman da, indi də nəzərəçarpan xüsusi məqam Naxçıvanda keçirilən tədbirlərə bütün ölkə gəncliyinin xüsusi maraq göstərməsidir. Bu da həm muxtar respublikanın qədim, zəngin tarixi, mədəniyyəti, həm də ölkə həyatındakı xüsusi yeri və rolu ilə bağlıdır. Eyni zamanda son illərdə muxtar respublikada gedən inkişaf prosesləri, abadlıq-quruculuq işləri də gənclərin buraya xüsusi marağının yaranmasına səbəb olub. Naxçıvan gəncliyi barədə isə onu deyə bilərəm ki, apardığımız monitorinqlər çox müsbət nəticələr verib, buradakı gənclərin könüllülük fəaliyyətinə aktiv qoşulması təqdirəlayiqdir və gələcəkdə ali təhsil müəssisələrindəki tələbə-gənclər təşkilatlarının daha da gücləndirilməsi, gənclərin potensialının artırılması üçün bir sıra layihələr reallaşdırmağı nəzərdə tutmuşuq. İnanırıq ki, birgə əməkdaşlığımız öz müsbət nəticələrini verəcək.

*Enes Eminoğlu – Türkiyə Gənclik Vəqfinin baş direktoru:* – Azərbaycanın bu qədim diyarına gəlişimizin əsas məqsədi "Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi"ni həyata keçirməkdir. Ötən ay Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın rəhbərliyi ilə Azərbaycanda səfərdə olmuşduq. Həmin vaxt Qarabağa, Şuşaya getdik. Təxminən, bir ay sonra yenə qardaş ölkədəyik. Türkiyə Gənclik Vəqfi kimi budəfəki səfərin hər iki qardaş ölkəni daha da yaxınlaşdıran, strateji ərazi sayılan Naxçıvan Muxtar Respublikasına olması, burada Zəfər Düşərgəsinin təşkili olduqca önəmlidir. Düşərgəyə 100 gənc Türkiyədən, 55-i Azərbaycanın digər bölgələrindən, 50-si isə muxtar respublikadan qatılıb. 5 gün müddətində gənclər tarix, mədəniyyət, idman və digər sahələri əhatə edəcək tədbirlərə qoşulacaq, müxtəlif səpkili proqramlar, konsertlər həyata keçiriləcək. Zəfər Düşərgəsi hər iki qardaş ölkənin gənclərinin daha da ya-





xınlaşmasına, qardaşlıq əlaqələrinin möhkəmlənməsinə vəsilə olacaq, birgə geniş fikir mübadiləsi aparıb dolğun nəticəyə varmaqla gələcək fəaliyyət perspektivləri müəyyənləşdiriləcək.

Onu da deyim ki, düşərgənin Naxçıvanda keçirilməsi Türkiyə gəncləri tərəfindən böyük rəğbətlə qarşılandı. Ümumiyyətlə, Türkiyə gəncliyi həm Azərbaycanı, həm də onun Naxçıvan Muxtar Respublikasını çox sevir. Həm məsafə baxımından, həm də digər özünəməxsus xüsusiyyətləri ilə muxtar respublikanın tədbirə yüksək səviyyədə ev sahibliyi etməsi çox təqdirəlayiq addımdır. Gələcəkdə belə layihələrin sayı daha da artacaq. Yaxın zamanlarda düşərgəni Azərbaycanın işğaldan azad edilmiş, Qarabağın ürəyi sayılan Şuşa şəhərində gerçəkləşdirməyi planlaşdırırıq. İnanırıq ki, birgə səylərimiz nəticəsində nəzərdə tutduğumuz hədəflərə çatacağıq.

Türkiyə Respublikasının vətəndaşı *Mustafa Çətin* deyir ki, buranın təbiət gözəllikləri göz oxşayır, insanda xoş hisslər oyadır. Naxçıvana gəldiyimiz andan etibarən insanların qonaqpərvərliyi və bizə göstərilən diqqət Türkiyə-Azərbaycan qardaşlığının, "bir millət iki dövlət" şüarının ən parlaq təzahürüdür. Bu gün biz səfər çərçivəsində Qarabağ zəfərinin xoşbəxtliyini yaşayırıq. Çünki qardaş Azərbaycanın qazandığı tarixi qələbə bütün Türk dünyasının sevinci, xoşbəxtliyidir. II Qarabağ müharibəsində bir daha bu qardaşlığın şahidi olduq. İnanırıq ki, bu dostluq, qardaşlıq bundan sonra da davam edəcək, bizdən sonra gələn nəsillər də bu birliyin himayəsində əsl vətəndaş kimi yetişəcək.

"Bu möhtəşəm görüşün səbəbkarları Vətən müharibəsində canını qurban verən şəhidlərimiz, qazilərimizdir", – deyən *İlkin Həsənov* diqqətə çatdırdı ki, Azərbaycan-Türkiyə gənclərinin sarsılmaz dostluğu gələcək uğurların və böyük qələbələrin təminatçısıdır. Eynilə böyük Qarabağ qələbəmiz kimi. Burada vaxtımız çox səmərəli keçir. Naxçıvana ilk dəfədir gəlirəm, amma, sanki bu diyarla lap əvvəlcədən tanışam. Şəhərin gözqamaşdıran gözəlliklərindən zəngin tariximizin, milli-mənəvi dəyərlərimizin izləri duyulur. Burada adını çox eşitdiyim, lakin səfər çərçivəsində tanış olduğum Duzdağ isə Uca Yaradanın Naxçıvana verdiyi ən gözəl nemətdir. Buradan ayrılacağımı düşünəndə çox təəssüf hissi keçirirəm. Bir daha buraya gəlməyi səbirsizliklə gözləyirəm.

**Nail ƏSGƏROV**
**Məcid RƏŞADƏTOĞLU**

## Olimpiada qalibləri mükafatlandırılıb

*Dünən respublika fənn olimpiadasının qaliblərinə medal və diplomlar təqdim olunub.*

Tədbirdə çıxış edən təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışaraq qeyd edib ki, bu qayğıdan və yaradılan şəraitdən bəhrələnərək ötən tədris ili ərzində də xüsusi istedadlı şagirdlərin aşkar olunması məqsədilə müxtəlif bilik yarışları, müsabiqələr, muxtar respublika və respublika səviyyəli olimpiadalar keçirilib. Həmin tədbirlər istedadlı uşaqların aşkar olunmasına, şagirdlərin müxtəlif fənlərə olan marağının artırılmasına öz töhfəsini verib, keçirilən fənn olimpiadaları maraqlı yanaşmalar, fərqli nəticələr və yüksək fəallıqla yadda qalıb.



Bildirilib ki, respublika fənn olimpiadası Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, fizika, kimya, biologiya, informatika, coğrafiya və tarix olmaqla, 8 fənn üzrə IX-XI sinif şagirdlərinin iştirakı ilə keçirilib. Olimpiadanın nəticələri uğurlu olub, muxtar respublika məktəbliləri respublika fənn olimpiadasında 5-i qızıl, 13-ü gümüş, 8-i isə bürünc olmaqla, 26 medal qazanıblar.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikanın ümumtəhsil məktəblərində fizika, kimya və biologiya laboratoriyalarının, kompüter və elektron lövhəli siniflərin, STEAM kabinələrinin yaradılması bu istiqamətlər üzrə tədris imkanlarını yaxşılaşdırıb, şagirdlərin riyaziyyat, fizika, biologiya və kimya fənlərinə marağını artırıb. Məhz bunun nəticəsidir ki, olimpiada qaliblərindən 13-ü, yaxud 50 faizi bu fənlər üzrə yer tutub. Olimpiadanın nəticələrinə əsasən Təhsil Nazirliyinə birbaşa tabe məktəblərin şagirdləri 9 medal qazanmaqla muxtar respublika birincisi, Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri 4 medal qazanmaqla muxtar respublika ikincisi, Heydər Əliyev adına Hərbi Liseyin kursantları isə 3 medal qazanmaqla muxtar respublika üçüncüsü olublar. Muxtar respublikanın şəhər və rayonları ilə yanaşı, kənd ümumtəhsil məktəblərində də yaradılan yüksək tədris şəraitinin nəticəsidir ki, həmin təhsil müəssisələrində oxuyan şagirdlər də olimpiadada yüksək nəticə əldə ediblər.

Olimpiada qalibləri ilə bağlı artıq 3 ildir, yeni qaydaların qəbul olunduğunu diqqətə çatdıran nazir bildirib ki, yeni qaydaya əsasən beynəlxalq olimpiada qalibləri istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qalibləri isə qalib olduqları fənlərə uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdir. Təhsil naziri olimpiada qaliblərini təbrik edib, onlara uğurlar arzulayıb.

Tədbirdə Təhsil Nazirliyi aparatının Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbəsinin müdiri Abdulla Əsgərov, Naxçıvan Qızlar Liseyinin məzunu Bəhriyyə Mustafayeva, Şərur rayon İbadulla kənd tam orta məktəbinin məzunu Müseyib Abdullayev çıxış edərək muxtar respublika və respublika fənn olimpiadalarının keçirilməsi, istedadlı şagirdlərin aşkarlanması və onlar üzərində sistemli işin aparılması sahəsində görülən tədbirlər haqqında məlumat verib, qazandıqları uğurlardan danışıb, yaxşı təhsil almaları üçün yaratdığı şəraitə görə olimpiada qalibləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda olimpiada qaliblərinə medal və diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Ailə təsərrüfatlarımız*

# İsti yayın sərin nemətləri

***Naxçıvanın bərəkətli torpaqlarında ərsəyə gələn nemətlər min bir dərdin dərmanı hesab olunur. Qədim diyarın təmiz havasından, saf suyundan, münbit torpağından qidalanan hər bir məhsul məxsusi dəyərə malikdir və bazar-dükanlarda əl-əl axtarılır. Adətən, insanlar istirahət etməyə üz tutarkən, yaxud da bir yerə qonaq gedərkən yolüstü ərzaq və digər məhsullar alıb pay aparırlar. Bu il də Naxçıvan-Culfa-Ordubad magistral yolunun kənarlarındakı satış obyektlərinə bol məhsul çıxarılıb. Yolboyu piştaxtalar üzərinə səliqə ilə düzülmüş qarpızlar, yemişlər buradan ötənlərin diqqətini çəkir. Sürücülərin əksəriyyəti avtomobilini saxlayıb torpaq mülkiyyətçilərindən məhsulların qiymətini soruşur, istədiklərini münasib qiymətə aldıqdan sonra yollarına davam edirlər.***



Biz də piştaxtalara yaxınlaşıb satıcılarla söhbətləşirik. Torpaq mülkiyyətçisi Cəmşid Həsənovla söhbət zamanı öyrənirik ki, buradakı satıcıların, demək olar ki, hamısı bostançılıqla məşğul olan ailələrin üzvləridir. Onlar bu sahədən yaxşı qazanc əldə edir, ailəsinin ehtiyaclarını öz halal zəhmətlərinin bəhrəsi ilə ödəyirlər. Müsahibim təsərrüfatçılığa başladığı ilk illərdən Naxçıvanda adı və dadı ilə tanınan Nehrəm qarpızı becərib. Daha sonra təsərrüfat sahəsini genişləndirmək üçün torpaq icarəyə götürüb, digər əkinçilik sahələri ilə də məşğul olub. İki hektara yaxın sahədə meyvə bağı salıb. 20 ildən çoxdur ki, qarpız, yemiş yetişdirməklə məşğul olan mülkiyyətçi bostanında yetişdirdiyi məhsullardan ağızdolusu danışır:

– Atalar yaxşı deyib ki, sən torpağa tər tök, o sənə zər verəcək. Doğrudan da, torpaq kəndli üçün ən yaxşı iş yeri, dolanışıq mənbəyidir. O, insanı heç vaxt barsız-bəhrəsiz qoymaz. Biz də ailəliklə torpağa bağlıyıq. Əzəldən dolanışığımız torpaq hesabına olub. Nehrəmin bərəkətli torpaqlarında hektarlarla sahədə bostan-tərəvəz məhsulları əkib-becərmişik. Ölkəmiz müstəqillik əldə etdikdən sonra kənd təsərrüfatı sahəsində çalışanlara xüsusi diqqət göstərildi. Təsərrüfat sahiblərinə güzəştli kreditlər, texnika və texnoloji avadanlıqlar, gübrələr, subsidiyalar verilməyə başladı, kənd əməkçilərinə mütərəqqi əkin və suvarma metodlarının yolları izah edildi. Görülən işlər bir məqsədə xidmət edirdi: məhsul istehsalını artırmaq və beləliklə, ərzaq təhlükəsizliyini təmin etmək. Bir məsələni də, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvanda yaradılan bu şəraitdən istifadə edənlər həqiqi sahibkar və ailə təsərrüfatçısı adını qazanıblar. Muxtar respublikada mütəmadi olaraq təşkil olunan satış yarmarkaları, festivallar imkan verir ki, istehsal etdiyimiz məhsulları tez bir zamanda sata bilək. Təsərrüfatımda ailə üzvlərimlə birgə bibər, pomidor tomatları, badımcan və qovun mürəbbələri, turşular, quru meyvələr, qovun, qarpız, alça, göycə, ərik araqları, üzüm çaxırı hazırlayaraq satışa çıxarıram. Muxtar respublikadakı əksər marketlərdə bizim təsərrüfatın 23 çeşiddə məhsulu satışdadır. Babək şəhərində yeni istifadəyə verilən bazar kompleksində də biz ailə təsərrüfatçıları üçün yaxşı şərait yaradılıb. Orada bir manat belə, yer pulu ödəmədən məhsullarımızı sata bilirik. Onu da qeyd edim ki, yerli bazarla yanaşı, paytaxt Bakı və ölkənin digər rayonlarına da məhsul ixrac edirəm. Əlavə olaraq 2 hektara yaxın ərazidə badam, ərik, alça, göycə, tut ağaclarından ibarət bağ salmışam. Sözümün canı budur ki, aqrar sahədə əldə etdiyim bütün bu uğurların təməlində dövlət qayğısı dayanır. Bu gün dövlət kənd əməkçilərinin əməyini də yüksək qiymətləndirir, onlara fəxri ad və ordenlər verir. Bildiyiniz kimi, ölkə rəhbərinin imzaladığı Sərəncama əsasən 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edildim. Bu mənim üçün olduqca qürurvericidir. Uzun illərdir, çəkdiyim əziyyətin belə yüksək mükafatla qiymətləndirildiyi üçün ölkə başçısına dərin minnətdarlığımı bildirirəm. İndi Naxçıvanda mənim kimi yüzlərlə nümunəvi ailə təsərrüfatına rəhbərlik edən sahibkarlar vardır. Ən böyük hədəfim təsərrüfatı böyüdüb iri sahibkarlıq subyektinə çevirməkdir. Düşünürəm ki, bunun üçün hər cür şərait var və sadəcə, zəhmət çəkmək lazımdır.

Təbii ki, qarpızdan danışıb, qovundan danışmasaq olmaz. Özü də adı və dadı ilə məşhur olan Şahtaxtı qovunundan. Adına, dadına şeirlər qoşulan Şahtaxtı qovununun daddamı nə qədər gözəldirsə, onu əkib-becərmək də bir o qədər zəhmət tələb edir. Buna görə də bu gün Şahtaxtı kəndində müəyyən təsərrüfatçılar tərəfindən yetişdirilən bu qovun növü haqqında elə həmin təsərrüfat sahiblərindən məlumat ala bildik. Belə təsərrüfatçılardan biri də zəhmətkeş insan Rövşən Həsənovdur. Həyətyanı sahəsində uzun illərdir ki, Şahtaxtı qovunu yetişdirən Rövşən kişi bu qovun sortu barədə bunları söylədi:

– Hər il may ayının sonlarından etibarən əkilən tutma qovunun yetişdirilib ərsəyə gətirilməsi bir neçə mərhələdə həyata keçirilir. Əvvəlcə, kərdilər hazır vəziyyətə gətirilir və suvarma işləri görülür. Sonra bir-iki gün öncədən isladılan toxum ocaqlara basdırılır. Hər ocağa beş-altı toxum salınır. Həmin toxumlar bir həftə ərzində cücərməyə başlayır. Sonra kollar seyrəldilir və bu kollardan ən irisi və şux olanı saxlanılır. Əkildikdən, təxminən, 40 gün sonra ona ikinci su verilir. Suvarıldıqdan sonra kollar çiçək tökməyə başlayır və həmin çiçəklərdən balaca qıralar əmələ gəlir, buna isə el arasında “gülburnu” deyilir. Həmin gülburnular ağız suyu ilə isladılır, bu da “dahangirləmə” adlanır. İsladılan gülburnular torpaqlanaraq açıq şəkildə 2-3 gün saxlanılır. Qurdlanıb-qurdlanmaması yoxlanıldıqdan sonra öz yarpağına bükülərək yerə basdırılır. Buna el arasında “bələnmə” ya da “quylama” deyirlər. Bu proses quylama adlandırılır. 30-40 gün aralığında torpağa basdırılmış şəkildə qalan bitkini mütəmadi olaraq nəzarətdə saxlamaq isə ən vacib işlərdəndir. Bu müddət tamam olduqdan sonra bitki torpaqdan çıxarılır və daha 15-20 gün açıq şəkildə saxlanılır. Bu müddətin sonunda isə qovun tam yetişmiş hesab olunur. Bu bostan bitkisini alarkən diqqət yetirməli olduğumuz bəzi məqamlardan da danışan zəhmət adamı bildirdi ki, qovunlar təzə, təmiz, sağlam, rəngi və forması öz təsərrüfat-botaniki sortuna müvafiq olmalıdır. Alıcıların əksəriyyəti hamar qovunların şirin olduğunu güman edirlər. Əslində isə üstü torabənzər, qəhvəyi şaxələri olan qovunlar daha şirin olurlar. Bu məhsulu alarkən onun təzəliyinə, saxlanma şəraitinə, səthinin vəziyyətinə diqqət yetirilməlidir. Onun insana rahatlıq gətirən özünəməxsus iyinə bu torpaqların bərəkəti, saf suları, insanların zəhməti hopub. Faydaları isə saymaqla bitmir. Mütəxəssislərin fikrincə, qovun həzm orqanlarını təmizləyir və xəstəliklərini aradan qaldırır. Şəkər, zülal və nişasta ilə zəngin olduğu üçün onu asanlıqla qida əvəzi kimi istifadə etmək mümkündür. Qovunda A vitamini, brom və yod daha çox olduğundan sinirləri sakitləşdirir, yuxu gətirir, qanı zəhərli maddələrdən təmizləyir. Revmatizm zamanı da faydalıdır. Xalq təbabətində qovun dənələrini qaynadıb suyunu içmək məsləhət görülür. Çünki o, tənəffüs yolu problemlərinin qarşısını alır. Qaraciyər xəstəliklərinə də qovun



dənəsinin suyu yaxşı təsir edir. Lakin gündə 1 stəkandan çox içmək məsləhət deyil. Qovun dərinin təravətli qalmasına, orqanizmin xərçəng xəstəliyindən qorunmasına kömək edir. Qarpızdan sonra ən faydalı tərəvəz sayılan qovunun limonla birlikdə şirəçəkən maşından keçirilərək alınan qarışığı güclü antioksidant təsiri yaradır. Xüsusilə infarktdan əziyyət çəkənlərə hər səhər mütəmadi olaraq bu qarışıqdan qəbul etmələri məsləhət görülür. Bu, xərçəng xəstəliyinin yaranma riskini də azaldır.

*Bir daha əminliklə deyə bilərik ki, muxtar respublikamızda dadlı və keyfiyyətli məhsullar yetişdirmək üçün hər cür şərait var. İnsanların torpağın əsl sahibinə çevrilməsi, sahibkarlara kreditlərin verilməsi, su anbarlarının yaradılması, meliorasiya sistemlərinin yüksək səviyyədə təkmilləşdirilməsi buna imkan verir. Bu şəraitdən bəhrələnən halal zəhmət adamlarımız isə necə deyərlər, qollarını çırmalayıb, zəhmətdən qorxmayıb hər mövsümdə bizləri min bir dərdin dərmanı, ekoloji təmiz məhsullarla təmin edirlər.*

**✍ Aytac CƏFƏRLİ**

## Naxçıvan gömrükçüləri tərəfindən saxlanılan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları məhv edilib

*Naxçıvan Muxtar Respublikasının Müsadirə edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını məhvetmə komissiyası tərəfindən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları yandırılaraq məhv edilib.*

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin 26 sentyabr 2019-cu il tarixli hökmünə, Naxçıvan Şəhər Məhkəməsinin 18 fevral 2021-ci il tarixli hökmünə, 29 oktyabr 2018-ci il, 26 fevral 2019-cu il, 18 yanvar, 24 fevral və 30 mart 2021-ci il tarixli qərarlarına, Şərur Rayon Məhkəməsinin 27 dekabr 2017-ci il tarixli hökmünə, 27 sentyabr 2017-ci il tarixli Qərarına, Ordubad Rayon Məhkəməsinin 8 dekabr 2020-ci il tarixli hökmünə, Şahbuz Rayon Məhkəməsinin 24 fevral 2020-ci il tarixli Qərarına əsasən, ümumilikdə, 13 iş üzrə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində ayrıca bağlamalarda saxlanılan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarına komissiyanın üzvləri tərəfindən baxış keçirilib, onların ümumi çəkisi, bağlamaların açılmadığı yoxlanılıb. Ümumi çəkisi 55 qram 180 milliqram qurudulmuş marixuana, 689 milliqram heroin narkotik vasitələri, 1 qram 105 milliqram metamfetamin psixotrop maddəsi, 1 ədəd qəlyan formasında hazırlanmış şüşə boru, 2 ədəd polietilen torbada ümumi sayı 197 ədəd olmaqla, çəkisi 44 qram 325 milliqram tramadol dərman həbləri və 6 ədəd içi boş olan konvalyut, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin 30 dekabr 2020-ci il və 17 iyul 2021-ci il tarixli məktubları ilə 601 milliqram heroin, 10 ədəd dərman həbi, 135 qram 900 milliqram marixuana, 113 qram həşiş, 197 qram 930 milliqram tiryək, 7 tablet və 7 parça tablet metadon, 488 qram metadon maye, 14 qram 140 milliqram metamfetamin, 79 tablet və 2 parça tablet psixotrop tərkibli dərman naturada üzləşdirilərək Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin Tibbi Tullantıların Ləğvi Sistemində yandırılmaqla məhv edilib.

Qeyd edək ki, qanunsuz olaraq keçirilən və gömrük orqanları tərəfindən saxlanılan pirotexniki vasitələr də yandırılaraq məhv olunub.

**Xəbərlər şöbəsi**

## İxtisasartırma kurslarını bitirən rabitə mütəxəssisləri sertifikatla təmin olunublar

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin 2021-ci il iş planına əsasən Naxçıvan Şəhər və Babək Rayon Rabitə idarələrinin bir sıra rabitə mütəxəssisləri Naxçıvan Regional Peşə Tədris Mərkəzinə, Şərur Rayon Rabitə İdarəsinin əməkdaşları isə Şərur Texniki-Peşə və Sürücülük Məktəbində Kabel xətlərinin quraşdırılması və təmiri üzrə rabitə montyoru üzrə ixtisasartırma kurslarına cəlb ediliblər.




İlkin olaraq kursları Naxçıvan Şəhər Rabitə İdarəsindən 7, Babək Rayon Rabitə İdarəsindən 9 olmaqla, ümumilikdə, 16 nəfər bitirib. Kursun ikinci mərhələsində isə Naxçıvan Şəhər Rabitə İdarəsindən 7, Babək Rayon Rabitə İdarəsindən 8, Şərur Rayon Rabitə İdarəsindən 9 olmaqla, ümumilikdə, 24 nəfər tədrisi davam etdirir. Kursu bitirən müdavimlər müvafiq hüquqi sənəd (şəhadətnamə) ilə təmin olunublar.

Həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin və Naxçıvan Şəhər Rabitə İdarəsinin 4 əməkdaşı isə “CISCO” Şəbəkə inzibatçılığı üzrə onlayn kursları müvəffəqiyyətlə bitirərək müvafiq sertifikatla təmin ediliblər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Qadınlar üçün toxuculuq təlimləri

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Ordubad Rayon İcra Hakimiyyəti tərəfindən qədim toxuculuq sənətinin inkişaf etdirilməsi, qadınların bu sahəyə marağının artırılması, eyni zamanda onların sosial vəziyyətinin yaxşılaşdırılmasına kömək etmək məqsədilə rayonda yaşayan müvafiq kateqoriyadan olan qadınlar üçün toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı növbəti təlim keçirilmişdir. Təlimdə 14 sağlamlıq imkanları məhdud qadın, 3 aztəminatlı ailənin üzvü və Ordubad Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 4 dərnək rəhbəri olmaqla, cəmi 21 nəfər iştirak edib.

Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Səbahət Mehdiyeva və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aparatının şöbə müdiri Tarverdi Məmmədov tədbirdə çıxış edərək “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlərdən danışıblar.

Sonra təlimçi istedadlı toxucu qadın Reyhanə Rəhimova əyani vəsaitlərdən istifadə etməklə təlimə başlayıb. Təlim iştirakçılar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### İtmişdir

Ordubad rayonunun Kotam kəndində yaşayan Əsədsoy Qurban Novruz oğlunun adına olan sürücülük vəsiqəsi (seriya № 008135) itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayon Xok kənd sakini Novruzov İdris Hidayət oğlunun adına olan MH-0011202 nömrəli torpağın çıxarışı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 594